# Heyvanlarla yaxın ünsiyyətin məkanı

## Həm istirahətə, həm də heyvanlarla ünsiyyətə şərait yaradan Bakı Zooloji Parkından reportaj



**Yay aylarında Bakı sakinlərinin istirahət məkanlarından biri də Bakı Zooloji Parkıdır. Bura gələnlər istirahət etməklə yanaşı, müxtəlif növ heyvanları görə, onlarla təmasda ola bilirlər. Biz də yolumuzu Bakı Zooloji Parkından saldıq. Artıq bir çox insanların istirahətə vaxt ayırdığı yay aylarında zooparkın qonaqlarının sayı da çoxalır. Daha çox isə valideynlər uşaqlarını gətirirlər. Çünki onlar heyvanlarla təmasda olmağa daha çox maraqlıdırlar.**

Qonaqlar zooparkı gəzir, heyvanlarla şəkil çəkdirirlər. Bir çox valideynlər uşaqlarının heyvanlarla ünsiyyətdə olmasına şərait yaradırdılar. Zooparkın ərazisində qonaqların rahatlığı və uşaqların istəkləri üçün müəyyən xidmətlər də nəzərdə tutulub. Belə ki, orada qonaqların çay içməsi üçün masalar var. Eyni zamanda uşaqlara şirniyyat almaq üçün də şərait yaradılıb.

### İSTİNİN HEYVANLARA TƏSİRİ

Bizi Zooparkın Teleologiya şöbəsinin müdiri Esmira Əhmədova qarşıladı. Onunla ilk olaraq isti havaların heyvanlara təsiri və bu fəsildə onlara necə qulluq edilməsi haqda söhbət apardıq. Bildirdi ki, yay ayları bir çox heyvanlar üçün əlverişlidir: "Quşlar bu fəsildə rahat olsalar da, dəvələr istidə tüklərini tökürlər. Sərinləmələri üçün alpak, qoyun kimi heyvanların isə yunları qırxılır. Onların tük örtükləri qalın olduğu üçün yayda çox istilik verir. Adətən heyvanlarda qış aylarına dözümsüzlük hiss olunur. Onlar əsasən ilanlar, timsah, müxtəlif balıqlar, dekorativ quşlar, flaminqolardır. Onlar həmişə qış aylarında qızdırıcılarla təmin olunurlar. Əgər bu da mümkün olmursa, onları içəri tərəfə alırıq".

E.Əhmədova deyir ki, fəsillərə görə heyvanların qida rasionun-



da fərqlər olur. Qışda daha kalorili və çox yemək verilsə də, yay ayları olduğu üçün hazırda yeməklərin kalorisi azaldılıb: "Bir də yeməklərinin çeşidlərində fərq olur. Qışda yeməklər karbohidrat meyilli olsa da, yayda meyvə-tərəvəz üstünlük təşkil edir. Bir də yay aylarında heyvanların su ilə düzgün təmin olunması lazımdır. Vaxtaşırı suları dəyişdirilir. Sərin olmasına diqqət edirik".

### YENİ GUŞƏDƏ UŞAQLAR HEYVANLARI YEMLƏYƏ BİLƏCƏKLƏR

Zooparkdakı yeniliklər haqda danışan E.Əhmədova bildirdi ki, hələ bir çox işlər də görülür: "Adi vətəndaşlardan biri bizə iquana hədiyyə etmədidir. Ona yay və qış üçün qəfəs hazırlanır. Pələng üçün qəfəs tikildi. Oxlu kirpi üçün də yeni qəfəs tikilib. Heyvanlar bir-birinə qarışmasın deyə, bəzi qəfəslərdə arakəsmələr yaradıldı. Qəfəslərin üzərindəki məlumat lövhələri dəyişdirildi".

Daha bir yenilik isə uşaqlarla bağlıdır. Belə ki, uşaqların heyvanları yemləmək istəklərini nəzərə alan zoopark rəhbərliyi burada yeni bir guşə hazırladır: "Bu guşədə uşaqların ev heyvanları ilə ünsiyyətdə olması üçün şərait yaradılacaq. Yəqin ki, tez bir zamanda qonaqlarımızın ixtiyarına veriləcək. Heyvanları yemləməyə uşaqlar maraq göstərirlər. Biz həmin guşədə şərait yaradırıq ki, kiçik ev heyvanlarını uşaqlar yemləsinlər. Biri var canavara yem atsın, biri də var ev heyvanına".

### UŞAQLARIN MARAQ DAİRƏSİ VƏ QORXUSU

E.Əhmədova deyir ki, bəzən uşaqlardan daha çox yırtıcı heyvanlara maraq gözləsək də, seçimləri fərqli olur: "Əvvəllər zooparkda uzunqulaq var idi. Bütün yırtıcılar bir tərəfdə qalırdı, uşaqlar uzunqulağa baxırdılar. Bütün uşaqlar onunla maraqlanırdılar. Yəqin



ona görə ki, həyət-bacada gördükləri heyvanlara daha çox maraq göstərirlər".

Uşaqların zooparkda qorxduqları heyvan isə əsasən ilanlardır. E.Əhmədovanın sözlərinə görə, uşaqların qorxub-qorxmamasından asılı olmayaraq, bəzi heyvanları onların yemləməsi qadağandır: "Qəfəslərin üzərində yazılıb ki, heyvanların yemlənməsi, hirsləndirilməsi qadağandır. Yırtıcılarla ünsiyyət tamamilə qadağandır".



### TƏBİƏT VƏ ZOOPARK HEYVANLARININ FƏRQİ

Zooparkda olan heyvanların təbiətdəki formasından nə ilə fərqlənməsinə gəlincə, E.Əhmədova bunları söylədi: "Heyvanlarda yemək tapmaq instinkti olur. Çünki onlar qidanı axtarıb tapırlar. Hər gün yeməkləri vaxtlı-vaxtında hazır verildiyi üçün zoopark heyvanlarında bu instinkt olmur. Əgər buradakı heyvanları təbiətə buraxmaq lazım gələrsə, gərək reabilitasiyadan keçsinlər ki, yem tapma, özlərini qoruma instinktləri bərpa olunsun. Burada isə hər şey onlar üçün hazırdır". Müsahibim bildirdi ki, hər gün heyvanlara yem, su verəndə onlar yemə, suya gəlirlərsə, deməli sağlamdırlar. Əgər gəlmirlərsə, deməli nə isə problem var. O zaman onlar müayinə edilir.

### MEYMUN AİLƏSİNİN QANUNU

Zooparkda müşahidələrimiz və eyni zamanda Esmira xanımın dediklərinə əsasən öyrəndik ki, meymunlar bir neçə fərddən ibarət ailə şəklində yaşayırlar. Bu ailənin isə özünəməxsus qanunları var. Bizim müşahidə etdiyimiz meymun ailəsi Pavian gamadril oldu. Bu meymunlar iki il əvvəl Gürcüstandan gətirilib. Meymun ailəsinin bir başçısı olur. Onlara yem verildikdə, ilk olaraq yeməyə məhz ailə başçısı başlayır. Nə qədər çox yemək verilsə də, o yeməyin hamısını öz qarşısına yığır və tam doyana qədər yeyir. Ailə başçısı doyduqdan sonra yerdə qalanları digər üzvlər yeyə bilərlər. E.Əhmədova dedi ki, bu ailə qanunu digər meymunların qidalanmasına mane olduğu üçün onlara yeməyi ayrı-ayrı qəfəslərdə verirlər.

### TEZ-TEZ GƏLƏN QONAQLAR

E.Əhmədovanın sözlərinə görə, qış aylarında qonaq az olur. Amma aprel ayından etibarən qonaqların sayı çoxalır. May ayında isə pik nöqtəyə çatır. Yayda şəhərin səs-küyündən qaçıb bura gəlirlər. Burda həm də sərinlik olur.

İki uşağı ilə bura gələn Lalə Cəlilova təəssüratlarını bizimlə bölüşdü. Bildirdi ki, uşaqları həvəsli olduqları üçün bura tez-tez gətirir: "Bina evində yaşadığımız üçün uşaqlar heyvanları ancaq televizorda görürlər. Rayona gedəndə orada bəzi heyvanları görəndən sonra tez-tez getmək istəyirdilər. Bizim isə heç cür vaxtımız olmur. Çünki işlər çoxdur. Sonra bir dəfə bura gətirdik. İndi artıq tez-tez bura gəlmək istəyirlər. Artıq böyük uşaqdırlar deyə qorxu yoxdur. Amma bir az balaca olanda bəzi heyvanlara baxanda qorxurdular".

Röya Niyazlı isə xalası ilə gəlmişdi. Deyir ki, valideynlərinin vaxtı olmadığı üçün xalası tez-tez onları gəzməyə aparır. Maraqları olduğu üçün zooparka da gəlirlər: "Bircə ilanlardan qorxuram. Ona görə də demək olar ki, ilanlar olan tərəfə baxmıram. Amma digər heyvanlar maraqlıdır. Heyvanlarla şəkil çəkdiririk. Yemək vermək istəsək də, xalam icazə vermir. Ən çox maraqlı isə meymunlardır. Çünki onlara yemək də veririk. Burada qəfəsdə olduqları üçün həm də çox heyvanlara yaxın dura bilirik".

**Aygün Asimqızı**



## TƏBRİK

*Bu gün Mürsəlin 8, Əsmərin 6 yaşı tamam olur. Bu münasibətlə onları babası Bəxtiyar, nənəsi Bağdad, atası Vasif, anası Ülviyyə, qardaşı Yusif, əmisi Asif, bibisi Jalə təbrik edir, onlara uzun ömür, sağlam uşaqlıq, gözəl gənclik, xoş gələcək arzulayırlar.*